

ƏLİSAHİB ƏROĞUL

# MƏN TÜRKƏM, BƏŞƏR OĞLUYAM

Comərdliyim fitrətimdir,
İradəm mətanətimdir.
Qeyrətim də sərvətimdir,
Mən türkəm, bəşər oğluyam!

İnsanı boza, alaya,
Bölmürəm ağa, qaraya.
Uymazam yalan dünyaya,
Mən türkəm, bəşər oğluyam!

Böyüklük ləyaqətimdir,
Nemətim sadəliyimdir.
Özümlük mayam, şəhdimdir,
Mən türkəm, bəşər oğluyam!

Qəlb diri, nəfsimdir ölü,
İç dünyamın var özülü,
Üzbəüzdür içi, çölü,
Mən türkəm, bəşər oğluyam!

İçdən dolub yarananam,
Amallıyam, ilqarlıyam.
Təbiətə doğmalıyam,
Mən türkəm, bəşər oğluyam!

İzzət, iffət siqlətimdir,
Ruhanilik ülfətimdir.
Abır, həya zinətimdir,
Mən türkəm, bəşər oğluyam!

Səfalətdən, cəhalətdən,
Hiylədən, kin-küdurətdən,
Riyadan uzağam, mərdəm,
Mən türkəm, bəşər oğluyam!

Sirri uca Nəsimiyəm,
Ənəlhəqqəm, haqq səsiyəm.
İlahi eşq əsiriyəm,
Mən türkəm, bəşər oğluyam!

Ruhum, qəlbimlə insanam,
İnsanlığın nizamıyam.
Fədəkarlıq mizanıyam,
Mən türkəm, bəşər oğluyam!

Nicatımdır insanlaşmaq,
İnsanlığı uca tutmaq,
Həqiqətə örnək olmaq.
Mən türkəm, bəşər oğluyam!

Adəm oğlu, özümlüyəm,
İnsanlığın təməliyəm.
Yerin, göyün ahəngiyəm,
Mən türkəm, bəşər oğluyam!

Demə türkəm, təklənmişəm,
Yağılığın düşməniyəm.
Ali məna aşiqiyəm,
Mən türkəm, bəşər oğluyam!

Əroğulam, şax sözlüyəm,
Bir sifətli, bir üzlüyəm.
Tox könüllü, tox gözlüyəm,
Mən türkəm, bəçər oğluyam!